AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 24 (1484), 27 iyul - 2 avqust 2021-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*

## *Ç.M.Hüseynzadənin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin*

## Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında Olimpiya Hərəkatının inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Çingiz Muxtar oğlu Hüseynzadə "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 iyul 2021-ci il***



# XXXII Yay Olimpiya Oyunları davam edir

## *Tokio-2020-nin rəsmi açılış mərasimi tamaşaçısız keçirildi*

İyulun 23-də Tokio-2020 XXXII Yay Olimpiya Oyunlarının açılış mərasimi keçirilib. Yaponiya Milli Stadionunda Bakı vaxtı ilə saat 15:00-da start götürən tədbir koronavirus pandemiyası səbəbindən azarkeşsiz keçirilib. Açılış mərasimini yalnız Beynəlxalq Olimpiya Komitəsinin və Milli Olimpiya komitələrinin 950 rəsmi şəxsi tribunadan canlı izləyib. Açılışda Azərbaycandan 27 nəfərlik heyət iştirak edib. Onların arasında idmançılarla yanaşı, yığmanın şef de-missionu Fərid Mansurov da yer alıb.

Açılışda əvvəlcə müxtəlif kompozisiyalar icra edilib və atəşfəşanlıq olub. Daha sonra Yaponiya bayrağı arenaya gətirilib və dövlət himni səsləndirilib.

*(ardı 2-ci səhifədə)*



# Goranboy Olimpiya İdman Kompleksinin açılışı olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Goranboy Olimpiya İdman Kompleksinin açılışında iştirak edib.

Dövlətimizin başçısına kompleksdə görülən işlər barədə məlumat verilib.

İnşasına 2014-cü ildə başlanılan bu kompleksin ərazisi 3 hektardan çoxdur. Sahəsi 9137 kvadratmetr olan kompleksdə böyük idman korpusu yerləşir. Universal idman zalı 905 tamaşaçı tutumludur. Bu zal basketbol, voleybol, həndbol, mini futbol idman növləri üzrə məşqlərin və yarışların keçirilməsinə imkan verir. Eyni zamanda, cüdo, taekvondo, sambo, karate, kikboksinq və digər idman növləri üzrə məşqlərin və yarışların keçirilməsi üçün nəzərdə tutulub.

Uzun illərdir ölkəmizdə Olimpiya hərəkatı geniş vüsət alıb. Ötən illər ərzində Azərbaycanda onlarla Olimpiya İdman Kompleksi tikilib. Bu isə ölkəmizdə idmana marağı artırıb, gənclərin asudə vaxtlarını daha səmərəli keçirmələri üçün geniş imkanlar açıb. Goranboyda istifadəyə verilən Olimpiya İdman Kompleksi də bu qəbildən icra olunan layihələr sırasında xüsusi yer tutur.

Kompleksə üzgüçülük hovuzu da daxildir. Burada 200-dən çox tamaşaçının yarışları izləməsi üçün hər cür şərait var. Burada, həmçinin güləş, boks, fitnes-trenajor, aerobika, gimnastika və rəqs zalları, şahmat otağı, konfrans zalı və digər otaqlar yaradılıb. Ərazidə üçmərtəbəli, 44 yerlik mehmanxana da fəaliyyət göstərəcək. Burada da idmançıların və qonaqların istirahəti üçün bütün imkanlar var. Futbol stadionunun tribunası 1141 tamaşaçı yerlikdir. Bundan əlavə, iki mini futbol meydançası da qurulub. Voleybol-basketbol meydançası, həmçinin uşaq əyləncə meydançası yaradılıb. Kompleksdə fiziki imkanları məhdud idmançılar və tamaşaçılar üçün də müvafiq şərait yaradılıb.

## *Pəhləvanlarımız dünya çempionatında 8 medala sahib çıxdılar*

**Səh. 6**

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*
**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*




# Meydan sahibləri liderliyi ələ aldılar

Tokio-2020-nin başlamasından 4 gün ötür. Artıq bu günlər ərzində 51 ölkənin təmsilçisi aktivinə medal yazdırıb. Bu ölkələrdən 23-ü isə Olimpiya Oyunlarının qızıl medalına sahib çıxıb. Son iki günə qədər Çin yığması lider olsa da, yarışların dördüncü günündə olimpiadanın təşkilatçıları Yaponiya yığması liderliyi ələ keçirib. "Gündoğar ölkə" təmsilçisinin aktivində hazırda 13 (8 qızıl, 2 gümüş, 3 bürünc) medal var. 14 (7 qızıl, 3 gümüş, 4 bürünc) medal qazanan ABŞ 2-ci sırada yer alıb. Birinciliyi əldən verən Çin Xalq Respublikasının yığması isə 3-cü pillədə qərarlaşıb - 18 (6 qızıl, 5 gümüş və 7 bürünc).

Təəssüf ki, bu günə kimi Azərbaycan idmançılarından heç biri mükafatçılar sırasına düşə bilməyiblər. Artıq Yaponiya paytaxtına yollanan 44 idmançımızdan 16-sı olimpiadada mübarizəni dayandırıb.

### *Tokio-2020 XXXII Yay Olimpiya Oyunlarında medal qazanan ölkələr*

| [illegible] | [illegible] | [illegible] | [illegible] | [illegible] |
|---|---|---|---|---|
| 1. [illegible] | 8 | 2 | 3 | 13 |
| 2. [illegible] | 7 | 3 | 4 | 14 |
| 3. [illegible] | 6 | 5 | 7 | 18 |
| 4. [illegible] | 4 | 5 | 3 | 12 |
| 5. [illegible] | 3 | 3 | 1 | 7 |
| 6. [illegible] | 3 | 0 | 4 | 7 |
| 7. [illegible] | 2 | 1 | 3 | 6 |
| 8. [illegible] | 2 | 0 | 0 | 2 |
| 9. [illegible] | 1 | 4 | 4 | 9 |
| 10. [illegible] | 1 | 2 | 2 | 5 |
| 11. [illegible] | 1 | 2 | 1 | 4 |
| 12. [illegible] | 1 | 1 | 0 | 2 |
| 12. [illegible] | 1 | 1 | 0 | 2 |
| 14. [illegible] | 1 | 0 | 1 | 2 |
| 14. [illegible] | 1 | 0 | 1 | 2 |




*(ardı 5-ci səhifədə)*

TOKYO 2020

TOKİO - 2020



# XXXII Yay Olimpiya Oyunları davam edir

(əvvəli 1-ci səhifədə)

## Tokio-2020-nin rəsmi açılış mərasimi azarkeşsiz keçirildi

“İrəliyə hərəkət” adlanan açılış mərasimində koronavirus pandemiyası qurbanlarının xatirəsi 1 dəqiqəlik sükutla yad olunub, həmçinin 2011-ci ildə Yaponiya tarixindəki ən dağıdıcı zəlzələdən sonra ölkənin yenidən bərpasını əks etdirən kompozisiya göstərilib.

Mərasim iştirakçıları meydanın mərkəzində ağacdan Olimpiya halqaları düzəldiblər və bütün bunlar fişənglərlə müşayiət olunub.

Daha sonra iştirakçı ölkələrin nümayəndə heyətinin paradı baş tutub. Parad iştirakçıları tibbi maskalardan istifadə ediblər.




Azərbaycan nümayəndə heyəti Tokio-2020 Yay Olimpiya Oyunlarının açılış mərasimindəki paraddan 5-ci keçib. Tədbirdə 27 nəfərlik heyət iştirak edib. Onların arasında idmançılarla yanaşı, Azərbaycan yığmasının şef de-missionu Fərid Mansurov da yer alıb. Azərbaycan bayrağını cüdoçu Rüstəm Orucov və taekvondoçu Fəridə Əzizova daşıyıb.

Paradda olimpiadanın vətəni Yunanıstan birinci, qaçqınlardan ibarət Olimpiya komandası ikinci, İslandiya üçüncü, İrlandiya isə dördüncü keçib. Qaçqınların komandasından sonra sıralama Yaponiya əlifbasına əsasən aparılıb.

Pandemiya ilə əlaqədar nümayəndə heyətləri arasında böyük ara məsafəsi olub. İştirakçılar rəsmi nümayəndələrdən ibarət 950 tamaşaçı ilə yanaşı, boş tribunaları da salamlayıblar. Ardınca 2 idmançı, 2 məşqçi və 2 hakimin iştirakı ilə andiçmə mərasimi təşkil olunub. Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Baxın çıxışından sonra Yaponiya imperatoru Naruxito Oyunları açıq elan edib. Daha sonra isə Olimpiya himni səsləndirilib. Yaponiyanın paytaxtı Tokioda təşkil olunan XXXII Yay Olimpiya Oyunlarının məşəli ölkənin tanınmış tennisçisi Naomi Osaka yandırıb. Bununla da olimpiadanın açılış mərasimi başa çatıb.

## Şosse velosipedi

Tokio-2020-də mübarizəyə başlayan Azərbaycanın ilk təmsilçisi velosipedin şosse növündə çıxış edən Elçin Əsədov olub. Startda velosipedçimizlə yanaşı, daha 128 idmançı iştirak edib. İki idmançının isə koronovirus testi müsbət çıxdığı üçün mübarizədən kənarda qalıb. E.Əsədov yarışda 127 nömrə ilə yarışa başlayıb.

Lakin idmançımız finişə çata bilməyib. 34 yaşlı idmançımız 57-ci km-də yıxılıb. Yarışın ümumi məsafəsi 234 km olsa da, Elçin Əsədov sona qədər tab gətirə bilməyib. Beləliklə, idmançımız Tokio-2020 ilə vidalaşıb.

## Cüdo

Tokio-2020-nin ikinci günündə cüdo yarışlarına da start verilib. Cüdo yarışlarının ilk günündə iki cüdoçumuz tatami üzərinə çıxıb. Kişilərin mübarizəsində Kəramət Hüseynov 60 kq çəki




dərəcəsində qüvvəsini sınayıb. İlk mərhələdə Eşli Makkenziyə (Böyük Britaniya) qalib gələn Kəramət 1/8 finalda gürcüstanlı Lukum Tsxvimiani ilə üz-üzə gəlib. Rəqibinə ipponla məğlub olan K.Hüseynov mübarizəni dayandırıb.

* * *

Qadınların yarışında isə Aişə Qurbanlı tatami üzərinə çıxıb. 48 kq çəki dərəcəsində mübarizə aparan xanım cüdoçumuz 1/16 finalda Katarina Koştaya (Portuqaliya) uduzaraq, yarışla vidalaşıb.

* * *

Cüdo yarışlarının ikinci günündə Azərbaycanın daha bir cüdoçusu tatami üzərinə çıxıb. 66 kq dərəcəsində Orxan Səfərov 1/16 final mərhələsində Yerlan Serikjanovla (Qazaxıstan) üz-üzə gəlib. Tokioda əsas medal ümidlərimizdən olan I Avropa Oyunlarının gümüş mükafatçısı rəqibinə əlavə vaxtda vazari xalı ilə uduzaraq, olimpiadanı əliboş tərk edib.




* * *

Cüdo yarışlarının üçüncü günündə komandamızın bayraqdarı Rüstəm Orucov mübarizəyə başlayıb. 73 kq çəki dərəcəsində çıxış edən təcrübəli idmançımız 1/16 final mərhələsində rusiyalı Mua Moquşkovla üz-üzə gəlib. Rəqibinə vazari ilə qalib gələn Rio Olimpiadasının gümüş mükafatçısı 1/8 finala yüksəlib. Rüstəm bu mərhələdə tacikistanlı Somon Makhmadbekovla üz-üzə gəlib. Rəqibinə vazari ilə qalib gələn R.Orucov 1/4 finala yüksəlib. Cüdoçumuz növbəti görüşünü Rio Olimpiadasının finalında məğlub olduğu yaponiyalı Şohei Onoya qarşı keçirib. Rüstəm 5 il bundan əvvəl olduğu kimi, bu dəfə də təcrübəli rəqibi ilə bacarmayıb.

Medal şansını saxlayan cüdoçumuz təsəlliverici görüşdə Akil Qyakova ilə qarşılaşıb.

Qarşılaşmanın əsas vaxtında qalib müəyyənləşməyib. Rəqibinə əlavə vaxtda qızıl xalla qalib gələn R.Orucov bürünc medal uğrunda qarşılaşmaya vəsiqə əldə edib.



Həlledici görüşdə cüdoçumuz Cənubi Koreya təmsilçisi An Çanqrimlə qarşılaşıb. Dünya çempionuna məğlub olan Rüstəm Orucov Tokio Olimpiadasında medalsız qalıb.

## Güllə atıcılığı

Tokio-2020-nin ikinci günündə Azərbaycanın güllə atıcısı Ruslan Lunyov da mübarizəyə başlayıb. Təəssüf ki, atletimiz Tokio-2020 Yay Olimpiya Oyunlarında finala vəsiqə qazana bilməyib. 10 metr məsafəyə kiçikçaplı tapançadan atəşaçma yarışında mübarizəyə təsnifat mərhələsindən başlayan Ruslan Lunyov yekunda 547 xal toplayaraq 20-ci yeri tutub. Bu nəticə isə onun həlledici mərhələyə çıxması üçün yetərli olmayıb.

## Üzgüçülük

Tokio Olimpiadasının ikinci günündə üzgüçülərimiz Maksim Şemberev və Məryəm Şeyxəlizadəxangah da debüt edib. Lakin hər iki idmançımız mübarizəni erkən dayandırıb. Üzgüçülərimizdən Maksim Şemberev 400 metr məsafəyə qarışıq üzmədə qüvvəsini sınayıb. Mübarizəyə təsnifat mərhələsindən başlayan idmançı 4 dəqiqə 19,40 saniyə nəticə göstərərək, öz qrupunda sonuncu - 8-ci olub. O, digər qrupların nəticələrindən də asılı olaraq, ilk “8-liy”ə düşə bilmədiyi üçün finala çıxmaq şansını itirib. Beləliklə, M.Şemberev təsnifat mərhələsini 26-cı sırada bitirib.

* * *

Məryəm Şeyxəlizadəxangah isə təsnifat mərhələsində 100 metr məsafəyə batterflyayda 1 dəqiqə, 1,37 saniyə nəticə göstərib. Ən yaxşı 18 üzgüçü arasına düşə bilməyən Məryəm yekunda 30-cu olub və yarımfinala yüksələ bilməyib. Beləliklə, Maksim Şemberevdən sonra o da olimpiadada mübarizəni dayandırıb.

Qeyd edək ki, olimpiadada Azərbaycanı təmsil edən üzgüçülər məhz Maksim Şemberev və Məryəm Şeyxəlizadəxangah idi.

## Boks

Tokio-2020-nin ikinci günündə boks yarışlarına da start verilib. Bu idman növündə ilk olaraq 3 boksçumuz rinqə çıxıb.



(ardı 3-cü səhifədə)

TOKİO - 2020

# XXXII Yay Olimpiya Oyunları davam edir

*(əvvəli 2-ci səhifədə)*

Əvvəlcə 57 kq çəki dərəcəsində çıxış edən Tayfur Əliyev mübarizəyə başlayıb. Boksçumuz 1/16 final mərhələsində vyetnamlı Duonq van Nquyenlə qarşılaşıb. T.Əliyev ilk raundda noqdauna düşməsinə baxmayaraq, 5 hakimdən 4-ü ona qələbə verib. İkinci raundda bütün hakimlər Nquyeni fərqləndirib. Üçüncü raundda isə 5 hakimdən 3-ü Azərbaycan təmsilçisinin üstün döyüşdüyünü bildirib.

Yekunda 3 hakim vyetnamlı, 2-si azərbaycanlının xeyrinə qərar verib. Bununla da Nquyen 3:2 hesabı ilə qalib gələrək, 1/8 finala yüksəlib. Rəqibinə hakimlərin qərarı ilə uduzan T.Əliyev isə mübarizəni dayandırıb.

* * *

Tayfur Əliyevlə yanaşı, Lorenzo Sotomayorun (69 kq) da debütü uğurlu olmayıb. 1/16 finalda gürcüstanlı Əsgərxan Mədiyevlə qarşılaşan Rio Olimpiadasının gümüş mükafatçısı ikinci raundda qaşından zədələnərək görüşü başa vura bilməyib. Hakimlər üçüncü raunda qarşılaşmanı dayandıraraq, azərbaycanlı boksçunun döyüşü davam etdirməsinə icazə verməyiblər. Nəticədə texniki nokaut alan idmançımız mübarizəni vaxtından əvvəl dayandırıb.



* * *

Komandamızın digər üzvü 91 kq-dan yuxarı çəki dərəcəsində çıxış edən Məhəmməd Abdullayev mübarizəyə 1/16 finaldan başlayıb. Onun rəqibi bruneyli Denis Latıpov olub.



M.Abdullayev ilk iki raundda rəqibindən üstün olub. Üçüncü raundda 5 hakimdən 4-ü qələbəni D.Latıpova versə də, yekunda 3:1 hesabı ilə qalib gələn azərbaycanlı boksçu 1/8 finala vəsiqə qazanıb.

Məhəmməd Abdullayev növbəti raundda özbəkistanlı Baxodir Jalolovla üz-üzə gələcək.

* * *

Boks yarışlarının ikinci günündə dünya çempionumuz Cavid Çələbiyev mübarizəyə başlayıb. 63 kq-da çıxış edən Cavid 1/16 finalda Ukrayna təmsilçisi Yaroslav Hartsizlə üz-üzə gəlib. Rəqibinə 5:0 hasabı ilə qalib gələn C.Çələbiyev 1/8 finala yüksəlib. İlk raundda 5 hakimdən 4-ü Azərbaycan təmsilçisinin üstün olduğunu bildirib. İkinci raundda referilərin hamısı, üçüncüdə isə 4-ü boksçumuzun xeyrinə qərar verib.




Dünya çempionumuz 1/8 finalda Ermənistan təmsilçisi Ovannes Baçkovla üz-üzə gələcək. Döyüş iyulun 31-də olacaq.

## İdman gimnastikası

Olimpiadanın ikinci günündə idman gimnastımız İvan Tixonov da mübarizəyə başlayıb. 25 yaşlı idmançımız fərdi çoxnövçülükdə qüvvəsini sınayıb. O, dayaqla tullanmada ilk yanaşmasında 13.600 xal yığıb. İkinci yanaşmasında isə hərəkəti dəqiq yerinə yetirə bilməyən İ.Tixonov yerə yıxılıb və xalsız qalıb.

Paralel qollarda hakimlərdən 12.766 xal alan atlet turnikdə hərəkətlərdə isə 13.133 xal toplayıb. İ.Tixonov xalçada sərbəst hərəkətlərdə 13.233, dəstəli at üzərində isə 13.366 xal yığıb.

Son olaraq, halqalarda 14.200 xal alan gimnast ümumilikdə 80.298 xalla 45-ci yeri tutub.

O, xalçada sərbəst hərəkətlərdə 53-cü, dəstəli at üzərində hərəkətlərdə 38-ci, halqalarda 20-ci, paralel qollarda 62-ci, turnikdə hərəkətlərdə isə 41-ci yeri tutub.

İvan Tixonov fərdi çoxnövçülükdə "24-lüy"ə, fərdi hərəkətlərdə isə "8-liy"ə düşə bilmədiyi üçün final mərhələsindən kənarda qalıb.

* * *

Olimpiadanın üçüncü günündə Azərbaycanın qadın idman gimnastı Marina Nekrasova da mübarizəyə qoşulub. 26 yaşlı idmançımız fərdi çoxnövçülükdə 4 hərəkətin cəmində 48.232 bal toplayaraq, 68 iştirakçı arasında 55-ci yeri tutub. Halbuki finala yüksəlmək üçün ilk "24-lüy"ə düşmək lazım idi.

O, müxtəlif hündürlüklü qollarda 10,833 bal, dayaqla tullanmada 13,133 bal, gimnastika tirində 12,666 bal, xalça üzərində sərbəst hərəkətlərdə 12.000 bal yığıb.

M.Nekrasova ayrı-ayrı hərəkətlərdə də ilk "8-liy"ə düşməmdiyi üçün finala çıxa bilməyib.

Beləliklə, Tokio-2020-yə yollanan Azərbaycanın hər iki idman gimnastı mübarizəni dayandırıb.

## Triatlon

Olimpiadanın 4-cü günündə triatlonçumuz Rostislav Pevtsov mübarizəyə başlayıb. 34 yaşlı idmançımız 1500 metr məsafəyə üzgüçülük yarışında iştirak edib. O, mərhələni 19,06 dəqiqəyə 45-ci pillədə bitirib.

İdmançımız daha sonra 40 km məsafəyə velosiped sürmə yarışında iştirak edib. İdmançı 40 km-lik finişi 42-ci keçib.

Triatlonçumuz üçüncü mərhələdə isə 10 km məsafəyə qaçışda yarışıb. O, velosipedsürmə, üzgüçülük və qaçış hərəkətlərinin cəmində 1 saat 50 dəqiqə 46 saniyə nəticə ilə 41-ci yeri tutub. Olimpiya çempionu adını norveçli Kristian Blummenfelt 1 saat 45 dəqiqə 4 saniyə nəticə ilə qazanıb. Finişə ondan 11 saniyə gec çatan böyük britaniyalı Aleks Yi gümüş, liderdən 20 saniyə geri qalan yeni zelandiyalı Hayden Vilde bürünc medal əldə edib.

Qeyd edək ki, bu, Rostislav Pevtsovun ikinci olimpiadası olub. Təcrübəli triatlonçu Rio-2016-da 39-cu yeri tutmuşdu.

## Qılıncoynatma

Tokio-2020-nin dördüncü günündə Azərbaycanın qılıncoynadanı Anna Başta mübarizəyə başlayıb. İdmançımız 1/16 final mərhələsində ABŞ təmsilçisi En-Elizabet Stounla üz-üzə gəlib. Rəqibinə 15:9 hesabı ilə qalib gələn A.Başta 1/8 finala yüksəlib. O, bu mərhələdə rusiyalı Olqa Nikitina ilə qarşılaşıb. Bu dəfə rəqibinə 13:15 hesabı ilə uduzan təmsilçimiz yarışla vidalaşıb.



## Stend atıcılığı

Tokio Olimpiadasının üçüncü günündə stend atıcımız Emin Cəfərov mübarizəyə başlayıb. İdmançımız ilk raundda 25, ikinci və üçüncü raundda isə 23 xal toplayıb.

E.Cəfərov 3 raundun nəticəsinə əsasən 71 xalla 24-cü pillədə qərarlaşıb. Onunla birlikdə daha 5 idmançı eyni xalı toplayıb. Təsnifat mərhələsi iyulun 26-da davam edib.




İdmançımız təsnifat mərhələsinin 4-cü raundunda 22 xal toplayıb. O, 5 raunddan sonra isə 116 xal toplayıb.

Beləliklə, Emin Cəfərov təsnifat mərhələsini 30 idmançı arasında 26-cı sırada bitirib.

İlk 6 yerin sahibi finala vəsiqə qazanıb. Azərbaycan təmsilçisi isə olimpiada ilə vidalaşıb.

## Taekvondo

Yarışların dördüncü günündə Azərbaycan taekvondoçuları mübarizəyə başlayıblar. Əvvəlcə komandamızın bayraqdarı Fəridə Əzizova dayanq üzərinə çıxıb.

67 kq çəki dərəcəsində mübarizə aparan idmançı 1/8 final mərhələsində ABŞ təmsilçisi Peyc Makfersonla üz-üzə gəlib.

Təəssüf ki, taekvondoçumuz rəqibinə 5:8 hesabı ilə məğlub olub. O, ilk raundda 2:0 hesablı qələbə qazansa da, ikinci raundda 0:5 hesabı ilə uduzub. Üçüncü raundda isə heç-heçə qeydə alınıb - 3:3.

İdmançımız növbəti görüşdə Matea Jeliclə (Xorvatiya) görüşdə də rəqibinə məğlub olub. Beləliklə, F.Əzizova Tokio-2020-ni medalsız başa vurub.




* * *

Fəridə Əzizova ilə yanaşı, Azərbaycanın daha bir taekvondoçusu Milad Beigi Hərçəqani də Olimpiya Oyunlarında mübarizəyə start verib. 80 kq çəki dərəcəsində çıxış edən idmançı 1/8 final mərhələsində Çin Taypeyini təmsil edən Liu Vey-Tinqlə üz-üzə gəlib.

Rəqibinə 15:11 hesabı ilə qalib gələn Milad 1/4 finala yüksəlib. İlk raundda idmançılar xal qazana bilməyib. Azərbaycan təmsilçisi ikinci raundda 6:7 hesabı ilə uduzsa da, sonuncu raundda 9:4 hesablı qələbəyə sevinib.




Milad Beigi Hərçəqani Tokio-2020 Yay Olimpiya Oyunlarında növbəti görüşünü Nikita Rafaloviçə (Özbəkistan) qarşı keçirib.

İdmançımız rəqibinə 1:12 hesabı ilə uduzub.

O, yarımfinalda Saleh Elşarabatiyə (İordaniya) də məğlub olub.

Beləliklə, Fəridə Əzizovanın (67 kq) ardından Milad Beigi Hərçəqani də Tokio-2020-ni medalsız başa vurub.

TOKİO - 2020



# XXXII Yay Olimpiya Oyunlarında yadda qalan anlar
































# TOKİO - 2020



## Olimpiya Oyunlarında qeydə alınan rekordlar və maraqlı hadisələr

### Güllə atıcılığı



Tokio-2020 Yay Olimpiya Oyunlarının ilk qızıl medalını Çin idmançısı qazanıb. Qadınlar arasında 10 metr məsafəyə tapançadan atəşaçma yarışlarında çinli Qian Yang 251,8 xalla bütün rəqiblərini qabaqlayaraq Olimpiya çempionu olub. Beynəlxalq Olimpiya Komitəsinin komandasının üzvü, rusiyalı Anastasiya Qalaşina gümüş, İsveçrə atıcısı Nina Kristen isə bürünc medal qazanıblar. Qeyd edək ki, Q.Yang bu nəticə ilə yeni Olimpiya rekordu müəyyənləşdirib.

### Üzgüçülük



On səkkiz yaşlı tunisli Ahmed Ayub Hafnau 400 metr məsafəyə sərbəst üsulla üzgüçülük yarışlarında bütün rəqiblərini qabaqlamağı bacarıb. Gənc idmançı məsafəni 3 dəqiqə 43 saniyəyə qət edib. Avstraliya idmançısı Cek Maklaflin gümüş, ABŞ təmsilçisi Kiran Smit isə bürünc medala sahib olublar.

### Qılıncoynatma

Kişilər arasında sablya növündə, qadınlar arasında isə şpaqa növü üzrə qalibləri müəyyənləşib. Qadınlar arasında şpaqa növündə çinli Yiven Sun bütün rəqiblərini qabaqlayaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. İkinci yerdə rumıniyalı Anna Maria Popesku, üçüncü yerdə isə estoniyalı Lehis Katrina qərarlaşıb.



* * *

Kişilərin sablya yarışında isə qızıl medalı macarıstanlı Aron Szilaqi qazanıb. İtaliyalı Luici Samele gümüş medal, Koreya respublikasının idmançısı Kim Junqvan isə bürünc medala sahib olublar.



### Velosiped

Avstriyalı Anna Kizenhofer qadınlar arasında şose yarışlarında birinci olub. Velosipedçi 137 kilometr məsafəni 3 saat 52 dəqiqə 45 saniyəyə qət edib. Niderlandlı Annemik van Vleyten gümüş, İtaliya velosipedçisi Eliza Lonqo Borqini isə bürünc medala sahib olub.



* * *

Ekvador velosipedçisi Riçard Karapas finişə hamıdan tez çatıb. 6 saat 5 dəqiqə 26 saniyəlik nəticə göstərən idmançı ölkəsinin tarixinə ikinci Olimpiya çempionu kimi düşüb. Ekvadora ilk Olimpiya qızılını isə 1996-cı il Atlanta Olimpiadasında Ceferson Peres qazandırıb. O, 20 km məsafəyə qaçışda bütün rəqiblərini qabaqlayıb.



### Ağırlıqqaldırma

Çinin qadın ağırlıqqaldıranı Xou Çjihuy 3 yeni rekord müəyyənləşdirib. 49 kq-da çıxış edən 24 yaşlı idmançı birdənqaldırmada 94 kq, təkanla qaldırmada isə 116 kq-ın öhdəsindən gəlib. Ümumilikdə 210 kq nəticə göstərən Çjihuy Olimpiya çempionu olub. O, hər 3 göstərici ilə öz çəkisində 3 Olimpiya rekordu qırıb.



### Skeytbord



Yaponiyalı Momidzi Nisiya 13 yaşında Olimpiya çempionu olub.

Yeniyetmə qız strit növündə fərqlənib - 15,26 bal. Nisiya 13 yaş 330 günlüyündə qızıl medal qazanıb. Brazilyalı Raissa Lil (14,64) ikinci, yaponiyalı Funa Nakayami (14,49) isə üçüncü yeri tutub.

## Meydan sahibləri liderliyi ələ aldılar

(əvvəli 1-ci səhifədə)

*Tokio-2020 XXXII Yay Olimpiya Oyunlarında medal qazanan ölkələr*

| Ölkə | Qızıl | Gümüş | Bürünc | Cəmi |
|---|---|---|---|---|
| 16. Avstriya | 1 | 0 | 0 | 1 |
| 16. Ekvador | 1 | 0 | 0 | 1 |
| 16. Honq Konq | 1 | 0 | 0 | 1 |
| 16. İran | 1 | 0 | 0 | 1 |
| 16. Norveç | 1 | 0 | 0 | 1 |
| 16. Filippin | 1 | 0 | 0 | 1 |
| 16. Tailand | 1 | 0 | 0 | 1 |
| 16. Özbəkistan | 1 | 0 | 0 | 1 |
| 24. Niderland | 0 | 3 | 0 | 3 |
| 25. Çin Taypeyi | 0 | 2 | 2 | 4 |
| 26. Braziliya | 0 | 2 | 1 | 3 |
| 27. Gürcüstan | 0 | 2 | 0 | 2 |
| 28. Çexiya | 0 | 1 | 1 | 2 |
| 28. İspaniya | 0 | 1 | 1 | 2 |
| 28. İndoneziya | 0 | 1 | 1 | 2 |
| 28. Serbiya | 0 | 1 | 1 | 2 |
| 28. İsveçrə | 0 | 1 | 1 | 2 |
| 33. Belçika | 0 | 1 | 0 | 1 |
| 33. Bolqarıstan | 0 | 1 | 0 | 1 |
| 33. Kolumbiya | 0 | 1 | 0 | 1 |
| 33. Danimarka | 0 | 1 | 0 | 1 |
| 33. Hindistan | 0 | 1 | 0 | 1 |
| 33. İordaniya | 0 | 1 | 0 | 1 |
| 33. Rumıniya | 0 | 1 | 0 | 1 |
| 40. Almaniya | 0 | 0 | 3 | 3 |
| 40. Qazaxıstan | 0 | 0 | 3 | 3 |
| 42. Misir | 0 | 0 | 2 | 2 |
| 42. Monqolustan | 0 | 0 | 2 | 2 |
| 42. Türkiyə | 0 | 0 | 2 | 2 |
| 42. Ukrayna | 0 | 0 | 2 | 2 |
| 46. Fil dişi sahili | 0 | 0 | 1 | 1 |
| 46. Estoniya | 0 | 0 | 1 | 1 |
| 46. İsrail | 0 | 0 | 1 | 1 |
| 46. Küveyt | 0 | 0 | 1 | 1 |
| 46. Meksika | 0 | 0 | 1 | 1 |
| 46. Y. Zelandiya | 0 | 0 | 1 | 1 |

## *Olimpiadalar tarixində ilk*

Gürcüstanlı Nino Salukvadze Olimpiya Oyunları tarixinə düşüb. 52 yaşlı güllə atıcısı Tokio-2020 Yay Olimpiya Oyunlarında atəş xəttinə çıxıb.Tapançadan 10 m məsafədən atəş açmada qüvvəsini sınayan veteran 9-cu dəfə Olimpiadada iştirakını rəsmiləşdirib. O, buna nail olan ilk qadın idmançıdır.

Tokio-2020-dən sonra karyerasını bitirəcəyini açıqlayan Salukvadze Seul-1988-dən başlayaraq Olimpiadaların daimi iştirakçısıdır. O, 1988-ci ildə qızıl və gümüş, Pekin-2008-də bürünc medal qazanıb.

Qeyd edək ki, Nino Rio-2016-da oğlu ilə eyni Olimpiadada iştirak etməklə də tarixi ilkə imza atmışdı.

### Medalçılara maskaları çıxarmağa icazə verildi

Tokio Yay Olimpiya Oyunları medalçılarının maskalarını 30 saniyə müddətinə çıxarmalarına icazə verilib.

Bu qərar idmançıların mükafatlandırma mərasimində foto çəkdirmələri üçün qəbul edilib. Himn səsləndirildikdən sonra onlara maskalarını yarım dəqiqəliyə çıxarmalarından ötrü siqnal işarəsi gələcək. Bu zaman mükafatçılar sosial məsafə qaydasına əməl etməlidirlər.

Daha sonra olimpiyaçılar növbəti işarə ilə maskalarını geyinəcək və qaliblə birgə onun podiumunda maskada şəkil çəkdirəcəklər.

### Bir ailədə iki Olimpiya çempionu

Tokio-2020 Yay Olimpiya Oyunlarında maraqlı hadisə qeydə alınıb. Eyni gündə tatami üzərinə çıxan bacı və qardaş qızıl medal qazanıb. Yarım saatdan az intervalla çempionluq yaşayan Yaponiya təmsilçiləri öz çəkilərində hegemonluğu davam etdiriblər. 21 yaşlı Uta Abe qadınların 52 kq, ondan üç yaş böyük olan Hifumi isə kişilərin 66 kq çəkidə hamıdan güclü olduğunu göstərib.

Hifumi Abe finalda gürcüstanlı Vaja Marqvelaşvilini məğlub edib. Onun bacısı Uta Abe



isə həlledici qarşılaşmada fransalı Amandin Büşarı üstələyib.

Qeyd edək ki, Hifumi Abenin 24, Uta Abenin 21 yaşı var. Yaponiyalı bacı-qardaş 2018-ci ildə Bakıda keçirilmiş dünya çempionatında da eyni çəkidə qızıl medal qazanıb. Eyni zamanda, H.Abe 2017-ci, U.Abe isə 2019-cu il dünya çempionatlarında fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. İndi onlar karyeralarında ilk dəfə Olimpiya çempionluğu əldə ediblər.



### Gimnast 46 yaşında karyerasını başa vurdu

Qadın idman gimnastikası üzrə Olimpiya çempionu, Özbəkistan təmsilçisi Aksana Çusovitina peşəkar idmançı karyerasını bitirdiyini elan edib.

46 yaşlı gimnast bu barədə qərarı Tokio-2020 Yay Olimpiya Oyunlarında idman gimnastikası yarışlarının təsnifat mərhələsində çıxışından sonra verib.

Tokio-2020 Yay Olimpiya Oyunları A.Çusovitinanın iştirak etdiyi səkkizinci Olimpiadadır. Olimpiadalarda iştirak sayına görə, özbəkistanlı gimnast rekord müəyyənləşdirib.

### İdmançı olimpiada zamanı huşunu itirdi



Tokio-2020 Yay Olimpiya Oyunlarında xoşagəlməz hadisə yaşanıb. Kamandan oxatma üzrə təsnifat yarışlarında rusiyalı idmançı Svetlana Qomboyeva huşunu itirib.

Özünü pis hiss edən 23 yaşlı idmançı ilk tibbi yardımdan sonra özünə gəlib. Müayinələrdən sonra onu gün vurduğu müəyyənləşib. Svetlana yekunda 630 xalla 45-ci olub.

## Olimpiadada çağırılmamış qonaq

Tokio-2020 Yay Olimpiya Oyunlarında daha bir maraqlı hadisə yaşanıb. Beysbol və softbol oyunlarını qəbul edəcək Fukusimadakı "Adzuma" stadionunda ayı peyda olub. Çağırılmamış qonağı arenada görən mühafizəçi dərhal polisi məlumatlandırıb. Eyni hadisə ardıcıl iki gün təkrarlanıb. Lakin boyu 1 metrdən yuxarı olan ayı hələ də tapılmayıb.

Qeyd edək ki, softbol yarışları Yaponiyanın Avstraliya üzərində 8:1 hesablı qələbəsi ilə başlayıb. Ardınca ABŞ İtaliyanı 2:0 hesabı ilə üstələyib.



### ABŞ Olimpiya rekordunu qırdı

Tokio-2020 Yay Olimpiya Oyunlarında ilk tarixi rekord qeydə alınıb. Bu, su polosu yarışında reallaşıb. Qadınlardan ibarət ABŞ yığması meydan sahibi Yaponiyanı 25:4 hesabı ilə məğlub edib. Bu hesab isə yeni Olimpiya rekordu müəyyənləşdirib. İndiyə qədər Olimpiadalarda heç vaxt belə böyükhesablı nəticə olmayıb.

Qələbə sayəsində ABŞ yığması aktivinə 2 xal yazdırıb.

### Əlcəzairli cüdoçu Olimpiya Oyunlarından imtina etdi

Əlcəzair cüdoçusu Fathi Nurin (73 kq) Tokio-2020 Yay Olimpiya Oyunlarında çıxış etməkdən imtina edib. Buna 30 yaşlı idmançının 1/16 final mərhələsində İsrail təmsilçisi Tohar Butbul ilə güləşmək istəməməsi səbəb olub.

Fələstinə dəstək məqsədilə döşək üzərinə çıxmayan cüdoçu olimpiadada mübarizəni başlamadan dayandırıb.

# Şəhid kapitanın xatirəsi idman tədbiri ilə yad edilib



Yasamal rayon Gənclər və İdman İdarəsi tərəfindən Vətən müharibəsi şəhidlərinin doğum günləri ərəfəsində təşkil olunan ənənəvi tədbirlər davam edir. Növbəti tədbir "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunmuş şəhid kapitan Nurlan Mustafayevin xatirəsinə həsr olunmuş milli benç-press üzrə turnirlə davam etdirilir.

Yasamal rayon Gənclər və İdman İdarəsinin və VITR fitness idman klubunun birgə təşkilatçılığı ilə Vətən müharibəsi iştirakçısı "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunmuş şəhid kapitan Nurlan Mustafayevin xatirəsinə həsr edilmiş milli benç-press üzrə turnirə iyulun 14-dən start verilib. Şəhidin doğum günü turnirin final mərhələsi başa çatmış və qaliblərin təntənəli mükafatlandırılma mərasimi keçirilib.

Yasamal rayon gənclər və idman idarəsinin rəisi İlham Səfərov turnirin rəsmi açılış mərasimində çıxış edərək, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında müzəffər ordumuzun 44 gün ərzində 30 illik işğala son qoyulmasını və Vətən yolunda canını fəda edən qəhrəman oğullarımızdan biri olan şəhid Nurlan Mustafayevin xüsusi rolunu qeyd edib. Kapitan Nurlan Mustafayev Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra orden və medallarla təltif olunub.

Tədbirdə millət vəkili Səbinə Xasayeva, Yasamal rayon İcra Hakimiyyəti Başçısı Aparatının şöbə müdiri Xaqan Teymurov, Yasamal rayon İcra Hakimiyyəti Başçısı Aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Samir İsmiyev, Əməkdar idman ustası, 4 qat dünya və 7 qat Avropa çempionu, dünya rekordçusu Vüqar Namazov, Yasamal rayon Ağsaqqallar Şurasının sədri Cavanşir Qurbanov, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Yasamal rayon Təşkilatının sədri Bəhram Şeydayev çıxış etmiş, Vətən müharibəsində əldə etdiyimiz tarixi qələbənin önəmindən, şəhidlərimizin xatirəsinin xalqımızın qəlbində daima yaşayacağından söz açıblar.

Sonda şəhidin anası Rəhilə Mustafayeva və həyat yoldaşı Günay Mustafayeva çıxış edərək Nurlanın keçdiyi şərəfli döyüş yolundan danışmış, turnirin təşkilatçılarına minnətdarlıqlarını bildiriblər.

Məlumat üçün bildirək ki, Ramin Süleymanzadə (-65 kq), Zaur Məmmədov (-85 kq) və Əbülfəz Abuzərli (+85 kq) yarışda bütün rəqiblərindən üstün oldular.

# Pəhləvanlarımız dünya çempionatında 8 medala sahib çıxdılar



Azərbaycanın yeniyetmə güləşçiləri Macarıstanın paytaxtı Budapeştdə keçirilən Avropa çempionatında 8 medal qazanıblar. Medallardan 1-i gümüş, 7-si bürünc əyarlı olub.

Yeganə gümüş medalı qadın güləşində Ruzanna Məmmədova (46 kq) əldə edib.

Sərbəst güləşçilərdən Cavid Cavadov (55 kq), Abdulrəhman İbrahimov (60 kq) və Yusuf Dursunov (92 kq), yunan-Roma güləşçilərindən isə Fəraim Mustafayev (48 kq), Rəhman Kərimov (51 kq), Ruslan Nurullayev (71 kq) və Cocu Səmədov (80 kq) bürünc medala layiq görülüb.

## Ramal Aslanov Kikboksinq Federasiyasının vitse-prezidenti təyin olundu

Ramal Aslanov Azərbaycan Kikboksinq Federasiyasının vitse-prezidenti vəzifəsinə təyin olunub. Təyinat AKF-nin Fəxri Prezidenti, İdarə Heyətinin Sədri, Milli Məclis Sədrinin müavini Adil Əliyev və AKF-nin Prezidenti Orxan Əliyev tərəfindən rəsmiləşdirilib. Ramal Aslanov Əməkdar İdman Ustası, Azərbaycan Prezidenti mükafatçısıdır, 11 dəfə Azərbaycan çempionu, 2019-cu il WAKO Dünya Çempionu, FF (FAITH FIGHT) GRAND PRIX Dünya kəmərinin sahibidir - (2016-2018).

Ramal Aslanov hazırda həmçinin milli komandanın kapitanı və AKF İdarə heyətinin sədr müavinidir.

## Sumoçularımız Avropa birinciliyini 5 medalla başa vurdular

Azərbaycan sumoçuları Polşanın Siedlce şəhərində keçirilən kadetlər və yeniyetmələr arasında Avropa birinciliyində iştirak ediblər. Komandamız yarışda Azərbaycan Sumo Federasiyasının prezidenti Samir Abdullayevin rəhbərliyi altında 4 idmançı ilə təmsil olunub. Yarışda ölkəmizi kadetlər arasında təmsil edən Sabir Qarayev (55 kq) bütün rəqiblərini qabaqlayaraq qızıl medala sahib çıxıb. S.Qarayev yeniyetmələrin yarışında isə 55 kq çəki dərəcəsində gümüş medala sahib olub.




Digər idmançımız Nuhan Müzəffərov (45 kq) kadetlər arasında ikinci yeri tutub. Alim Balaşlı (60 kq) və Tamerlan Bağırov (60 kq) isə yeniyetmələr arasında bürünc medal qazanıb.

Qeyd edək ki, Polşada yarışla yanaşı, Avropa Sumo Federasiyasının Konqresi də keçirilib. Konqresdə beynəlxalq qurumun yeni tərkibi formalaşıb. Seçkilərə əsasən Dariuş Rozum yenidən Avropa Sumo Federasiyasının prezidenti seçilib. Azərbaycan Sumo Federasiyasının prezidenti Samir Abdullayev isə növbəti 5 il müddətinə Avropa Sumo Federasiyasının vitse-prezidenti seçilib.

## Şəhid jurnalistlərin xatirəsinə həsr olunmuş uşu və muay-tay üzrə Bakı şəhər birinciliyinin açılışı olub

Abşeron Olimpiya İdman Kompleksində şəhid jurnalistlər - AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimovun və Azərbaycan Televiziyasının videooperatoru Sirac Abışovun xatirəsinə həsr olunmuş yeniyetmələr və gənclər arasında uşu və muay-tay üzrə Bakı şəhər birinciliyi keçirilib.

Yarışın açılış mərasimində əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Açılış mərasimində çıxış edən Azərbaycan Döyüş Federasiyaları Assosiasiyasının (ADFA) prezidenti Azər Həsənsoy bildirib ki, şəhidlərin xatirəsinə həsr olunmuş yarışların keçirilməsi artıq ADFA tərəfindən ənənəyə çevrilib: "Milli Mətbuat Günü münasibətilə keçirilən bu turnir Kəlbəcərdə şəhid olan jurnalistlərimiz Məhərrəm İbrahimov və Sirac Abışovun əziz xatirəsinə həsr olunub. Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin ruhu qarşısında baş əyirik. Vətən uğrunda şəhidlik zirvəsinə ucalanlar arasında jurnalistlərimiz də var. Şanlı Vətən müharibəsi barədə xəbərləri xalqımıza və dünyaya çatdıran jurnalistlərimiz misilsiz fədakarlıqlar göstərdilər. Məhərrəm və Sirac da informasiya müharibəsində, düşmənin faşist mahiyyətinin ifşa edilməsində ön sıralarda olublar".



Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin nümayəndəsi Rəşad Əliyev belə yarışların gənclərimizin idmana marağının artırılması ilə yanaşı, onların hərbi vətənpərvərlik və döyüş ruhunun gücləndirilməsi baxımından da önəmini qeyd edib.

Şəhid jurnalistlərin ailə üzvləri həm Məhərrəm İbrahimovun, həm də Sirac Abışovun xatirəsinə göstərilən yüksək ehtirama və xatirə turnirinin təşkilinə görə minnətdarlığını bildiriblər.

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin, Azərbaycan Döyüş Federasiyaları Assosiasiyasının birgə təşkilatçılığı ilə keçirilən yarışa 150-dən çox idmançı qatılıb. Turnirdə ümumilikdə 20-dən çox idman klubu təmsil olunub.

# Fəxri fərmanla təltif olunublar

26 iyul Gənclər və İdman Nazirliyinin yaranması günü münasibətilə Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsində dəyirmi masa keçirilib. Tədbirdə Gəncə şəhər gənclər və idman baş idarəsinin rəisi Həmid Nəsirov çıxış edib. İdarə rəisi Gənclər və İdman Nazirliyinin yaranması günü münasibətilə Baş İdarənin əməkdaşlarını təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Daha sonra Baş İdarənin əməkdaşları İdarə rəisi Həmid Nəsirovun müvafiq əmri ilə fəxri fərmanla təltif olunublar.






## Qrossmeysterimiz birinci oldu

Serbiyada keçirilən beynəlxalq turnirdə Azərbaycan şahmatçısı Eltac Səfərli uğurla çıxış edib.

Şahmatçımız 6 xalla bütün rəqiblərini qabaqlayaraq turnirin qalibi olub. İkinci yeri şahmatçımızla eyni xalı yığan və əlavə göstəricilərə görə, ondan geri qalan Aleksey Polçikov tutub. Üçüncü pillədə isə 5,5 xalla monteneqrolu Draqan Kosic qərarlaşıb.

İsveçrə sistemi üzrə keçirilən yarış 9 turdan ibarət olub.

## Veteran futbolçu dünyasını dəyişdi

Azərbaycanın veteran futbolçusu Müzəffər Qasımov dünyasını dəyişib.O, 80 yaşında Gəncədə vəfat edib.

Qeyd edək ki, Müzəffər Qasımov "Kəpəz"in Müşahidə Şurasının üzvü idi. Keçmiş oyunçunun karyerası əsasən Gəncənin "Dinamo" klubu ilə bağlı olub. O, bölgə təmsilçisində baş məşqçi kimi də fəaliyyət göstərib.

Futbol

# Anti-futbol söhbətləri



**Mobil İSMAYILOV**

*(əvvəli qəzetimizin 23-cü sayında)*

## Qalmaqal yaradan məşqçilər

Hələ vaxtı ilə “Arsenal”ın baş məşqçisi Arsen Vengerlə “Çelsi”də işləyən Joze Mourinyonun soyuq münasibətlərdə olduğunu futbol həvəskarları yaxşı xatırlayırlar. Məlumdur ki, portuqaliyalı mütəxəssis mətbuat konfranslarında bəzən həmkarlarına qarşı ehtiyatsız, hətta qeyri-etik fikirlər səsləndirir. Elə indi də hərdən başqalarını “sancır”. O vaxtlar bir neçə dəfə Vengerin ünvanına kəskin ifadələr işlətmişdi. Hətta onu uğursuzluq üzrə mütəxəssis adlandırmışdı. Təbii ki, bu da Vengerin hiddətinə səbəb olmuşdu. Mətbuat konfranslarının birində



o, bildirmişdi ki, Mourinyo sözlərinə, müsahibələrinə məsuliyyətlə yanaşmır. Hələ üstəlik hörmətsiz ifadələr işlədir. Buna görə də onun həmkarlarına qarşı hərəkətlərini səviyyəsizlik hesab edir və çox təəssüflənir. Nəticədə iki komandanın görüşü zamanı onlar nəinki bir-birinə yaxınlaşıb görüşmədilər, həm də oyunun gedişində bir-birini kobud tərzdə itələdilər, hətta əl-qol atmağa başladılar.

Lap elə ötən mövsüm İngiltərə Premyer Liqasında sakit təbiətli Sulşerlə emosional Mourinyo arasında qalmaqal yaşandı. Komandaların prinsipial qarşılaşmasında “Mançester Yunayted” 3:1 hesabı ilə qalib gəldi. Oyundan sonra Mourinyo ənənəsinə sadiq qalaraq, rəqib komandanın ünvanına bəzi narazılıq doğuran sözlər səsləndirdi. Sulşer də öz növbəsində cənubi koreyalı futbolçu Sonun meydanda yıxılmalarına kəskin replika atdı. Bundan sonra əsəbləşən Mourinyo növbəti gün Sulşerin fikrinə sərt reaksiyasını bildirdi. Daha sonra Sulşerin 18 yaşlı oğlu da bu “söz müharibəsinə” qoşuldu.

Hollandiyalı mütəxəssis Dik Advokatın bəzi hərəkətlərinə görə ona Rusiya idman mediası “Dik-skandal”, “Dik-kapriz” ləqəbləri qoymuşdu. Təəccübləndirici addımları ilə seçilən bu məşqçi mürəkkəb xarakteri ilə həmişə gündəmə gəlirdi. Məsələn, gözlənilməz müqavilələr bu mütəxəssis üçün adi hal idi. Hələ Birləşmiş Ərəb Əmirlikləri yığmasının baş məşqçisi olarkən, Advokat cəmi iki ay işlədikdən sonra bütün parametrlərdə daha perspektivli Cənubi Koreyanı seçərək qəflətən ərəb ölkəsini tərk etmişdi. Sankt-Peterburqun “Zenit” komandasını çalışdırarkən Dik ilkin olaraq Avstriya Futbol Federasiyası ilə razılığa gəlmişdi. Peterburq klubu müqavilənin şərtlərini daha da yaxşılaşdırdıqdan sonra niderlandlı mütəxəssis Avstriya futbol rəsmiləri ilə əlaqəni kəsmişdi. Nəticədə məsələyə hüquqi müstəvidə aydınlıq gətirilmişdi. Onun Belçika Futbol Federasiyası ilə münaqişəsi gərginliyi ilə yadda qaldı. Belçikalılarla rəsmi müqavilə bağlayan Advokat heç işinə də başlamadan gözlənilmədən Rusiya yığması ilə razılıq əldə etdi. Avropa çempionatı ərəfəsində onun Belçika yığması ilə müqaviləni pozub “sərfəli” Rusiyanı seçməsi incik qalmış ölkənin rəsmilərini coşdurdu. Rusiya futbol ittifaqı belçikalılarla müqayisədə Dikə olduqca böyük məbləğ (bəzi mənbələrə görə ilinə 12 milyon avro) təklif etmişdi. Advokatın Belçika futbol federasiyasına 1 milyon kompensasiya ödəməsinə baxmayaraq özlərini təhqir olunmuş hesab edən Belçika rəsmiləri niderlandlı baş məşqçidən məişət, otel, müəyyən sifariş xərclərini də ödəməyi tələb etdilər. Bunlarla da kifayətlənməyən Belçika futbol qurumu Dikin məşqçilik lisenziyasının ləğv olunması üçün UEFA-ya müraciət etdi. Maraqlıdır ki, bu ərəfədə rusiyalı jurnalistlərə müsahibə verən Dik Advokat bildirmişdi ki, “narahat olmayın, Rusiyadan heç yana qaçası deyil(!)”.



Son illər baş məşqçilərin qısa müddət ərzində bir klubdan digərinə keçmələrinin sayı artmağa başlayıb. Bəzi hallarda belə müəmmalı keçidlərin səbəbləri də müəyyən dövrə qədər qaranlıq qalır. Elə hallara da rast gəlinir ki, hansı səbəblərdən baş məşqçinin klubdan yola salınması onun özünə dəqiq bəlli olmur. Müəyyən zaman keçdikdən sonra əsl həqiqət üzə çıxır. Məsələn, vaxtı ilə “Mançester Siti”ni çalışdıran italiyalı mütəxəssis Roberto Mançini klubdan kənarlaşdırılmasının səbəblərini bilməmişdi. O, müsahibələrində bildirmişdi ki, klub prezidenti hansı səbəblərdən qovulmasını onun üzünə deyə bilmədi. Hətta bu proses o dərəcədə sürətlə baş vermişdi ki, onun komandanın azarkeşləri ilə vidalaşmağa vaxtı və imkanı olmamışdı. O, klubdan ayrıldıqdan sonra bəlli olmuşdu ki, prezident Əli Mübarək futbolçuların təsiri altında məcburiyyət üzündən belə bir addım atıbmış. Məlum olduğu kimi o illərdə Mançini oyunçularla yola getməyən bir baş məşqçi kimi tanınırdı. Sonradan Mançini İtaliya və Türkiyə jurnalistlərinə aydınlıq gətirdi ki, istefa prosesinə komandanın 2 futbolçusu - Soriano və Beqiristan rəhbərlik edib. Digər futbolçular da onlara qoşulub. Oyunçularla narazılığı olsa da, istefa qərarını gözləmirmiş. Tez-tez birlikdə yemək yediyi klub prezidentinə çox inanırmış. Lakin Əli Mübarək ona xəyanət etdi. Proses gizli hazırlandığından onun heç nədən xəbəri olmamışdı.

Əlbəttə, bu mülahizələr məsələnin görünən tərəfidir. Başqa səbəbin olması da istisna edilə bilməz.



## İrqçilik futbol üçün çox təhlükəlidir

Son vaxtlar Avropanın stadionlarında irqçi şüarların səsləndirilməsinə tez-tez rast gəlirik. Belə hallar İtaliya çempionatlarında daha çox müşahidə olunur. Qitə çempionatının qrup mərhələsi çərçivəsində Slovakiya və İngiltərə yığmaları arasında Bratislavada keçirilən oyunda azarkeşlərin irqçi şüarlar səsləndirməsi nəticəsində Slovakiya Futbol Federasiyası böyük məbləğdə cərimələyə məruz qaldı. Avropa birinciliyinin seçmə qrup mərhələsində Bolqarıstan-İngiltərə oyununda (matç 0:6 hesabı ilə bitmişdi) çoxsaylı irqçi şüarlar səsləndirildiyinə görə yerli ölkənin futbol federasiyası, stadion və tamaşaçılar ilə bağlı ciddi tədbirlər görüldü.

UEFA irqçilik əleyhinə 2002-ci ildən aktiv fəaliyyətə başlamışdır. UEFA-nın “İrqçilik futbol üçün çox təhlükəlidir” prinsipi uğrunda qətiyyətli mübarizə aparılması üçün ciddi tədbirlər nəzərdə tutulurdu. Elə həmin ərəfədə UEFA bu istiqamətdə xüsusi proqram qəbul etdi. 10 bənddən ibarət olan həmin proqramın əsasını sərt qərarların həyata keçirilməsi təşkil edirdi. Məsələn, planda qeyd olunub ki, Avropanın bütün klubları irqçilik əleyhinə yeganə şüarla çıxış etməlidirlər. Bundan başqa klublar və yığmalar irqçiliyə qarşı bütün mümkün vasitələrdən istifadə edilməsi və meydanda baş verən epizodlarda iştirak edən futbolçular haqqında kəskin qərarların qəbul ediləcəyi barədə öhdəlik götürməlidirlər. Həmçinin klublar illik bilet satarkən azarkeşlərdən stadionda irqçilik hallarının baş verməsinə şərait yaratmamalarına dair tələb və xəbərdarlıqlar etməsinin vacibliyi vurğulanırdı. Əgər tribunada azarkeş irqçi şüar səsləndirirsə, dərhal buna reaksiya verilməsi nəzərdə tutulurdu. Azarkeşləri irqçi ifadələr səsləndirən klub ilkin mərhələdə 14 min avro, bu hal təkrarlandığı təqdirdə 70 min avro cərimə ödəməli olacaqdı. Əgər fakt üçüncü dəfə təkrar olunduğu halda, stadionun bağlanması kimi sərt bənd də proqramda yer almışdı. Son vaxtlar isə bu xoşagəlməz proses daha çox internetdə müşahidə olunur.

## Dopinq və dopinq sırasına daxil edilməyən preparatlar

Məlum olduğu kimi olimpiadalarda, çempionatlarda qaliblər, rekordçular dopinqdən istifadə edirlər. Bunu artıq gizlətmək mümkün deyildir. Son illər mediada, internetdə daha çox məlumatlar yayılır. Təəssüf ki, bu meyllər futbol dünyasından da yan keçmir.

Stabil oyun göstərə bilməyən futbolçular bəzən azarkeşlərdə çaşqınlıq yaradır. Yəni, konkret futbolçu və ya futbolçular silsilə oyunlarda əla təsir bağışlasa da, növbəti oyunda,yaxud ardıcıl oyunlarda uğursuz görüntü ilə yadda qalır. Hətta göstərdikləri oyuna görə onları az qala tanımaq belə mümkün olmur. Əlbəttə, burada bir sıra amillər (zədələr, idman rejiminin pozulması, münasibətlərin qəflətən kəskinləşməsi və sairə) ola bilər. Lakin müəyyən hallarda qadağan olunmuş və yaxud olunmamış preparatların qəbulu şübhələri də ortaya çıxır. Təbii ki, azarkeşlərin bundan xəbəri olmur. Burada söhbət təkcə dopinq xarakterli maddələrdən getmir. Bəzi preparatlar var ki, digər idmançılar kimi futbolçular da istifadə edir. Onlardan bir qrupu kişi hormonu olan testosteronu qana daxil edən preparatlardır. Bəzi futbolçular normadan artıq qəbul etdikdə qana çox porsiyada daxil olur və həmin futbolçular olduqca fəal təsir bağışlayır, sürətli oyun göstərərək, yorulmurlar. Elə hallar olur ki, bu preparatların təsirindən bəzi futbolçular yaxşı oyun göstərməklə yanaşı, çılğınlaşır, əsəbi görkəm alır, hətta aqressivləşir. Belə preparatların sırasında dopinq kimi qəbul edilənləri də var, edilməyənləri də. Məsələn, götürək Rusiya futbolunu. Bu ölkənin futbolçuları açıq şəkildə “anastan” preparatı qəbul edirlər. Apteklərdə reseptsiz satılır. Əsasən guya bitki komponentlərindən hazırlanan bu preparat qadağan edilmiş dopinqlər sırasına daxil edilmir və zərərli fəsadları azdır (!). Keçmiş illərdən başlayaraq istifadə olunduğuna görə sınaqdan çıxmış preparat hesab edilir. Rusiya istehsal olan bu preparat həmçinin güləş, ağırlıqqaldırma, boks və tennis kimi idman növlərində də münasib hesab olunur.

Ümumiyyətlə, bu qəbildən olan maddələrdən istifadə bütün dünya futbolunda mövcuddur. Müasir futbolda stadionlarda arabir xoşagəlməz hadisələrin baş verməsində belə preparatların təsiri heç də az deyildir. Tez-tez qaydaların pozulması, ifrat kobudluğa yol verilmələr, ciddi zədələrin artması, futbolçuların uzun müddətə sıradan çıxmaları, oyunçuların özlərini həddindən artıq qıcıqlandırıcı aparmaları (bəzən əvəzlənən futbolçu narazı qalaraq ehtiyat oyunçular və məşqçilər korpusunun yanındakı su qablarına təpik atır, məşqçinin ona uzadılmış əlini sıxmır, məşqçi heyəti və komanda yoldaşları ilə qaba rəftar edir, söyüş söyür, hakimlərlə yersiz mübahisə edir, qırmızı vərəqə aldıqda meydanı ləng tərk edir və sairə.) aparmaları digər amillərlə yanaşı bu cür preparatların qəbul edilməsi ilə də bağlı ola bilər. Hər halda mütəxəssislər belə izah edirlər.





*(ardı var)*

# Dünya idmanı






## Brisben şəhəri 2032-ci ildə Yay Olimpiya Oyunlarına ev sahibliyi edəcək

2032-ci ildə Yay Olimpiya Oyunlarına Avstraliyanın Brisben şəhəri ev sahibliyi edəcək. Bu barədə Beynəlxalq Olimpiya Komitəsinin Yaponiyanın paytaxtı Tokioda keçirilən sessiyasında qərar qəbul olunub.

Avstraliya üçüncü dəfə Yay Olimpiya Oyunlarına ev sahibliyi edəcək. Belə ki, 1956-cı ildə Olimpiada Melburn, 2000-ci ildə isə Sidneydə təşkil olunub.

Xatırladaq ki, 2024-cü ildə Yay Olimpiya Oyunlarına Paris, 2028-ci ildə isə Los-Anceles şəhərləri ev sahibliyi edəcək.

## Olimpiya Oyunlarının devizi dəyişdirildi

Beynəlxalq Olimpiya Komitəsinin Tokioda keçirilən 138-ci sessiyasında Olimpiya Oyunlarının rəsmi devizi dəyişdirilib. Yeni deviz sessiya iştirakçıları tərəfindən yekdil şəkildə qəbul edilib. Bundan sonra Olimpiya Oyunlarının rəsmi devizi "Ən sürətli, ən yüksəyə, ən güclü - birlikdə!" (latın dilində: "Citius, altius, fortius - communis!") kimi səslənəcək.



Xatırladaq ki, Olimpiya Oyunlarının rəsmi devizi əvvəllər "Ən sürətli, ən yüksəyə, ən güclü!" kimi səslənirdi. Həmin deviz 1894-cü ildə Birinci Olimpiya Konqresi tərəfindən təsdiq edilmişdi. Oyunların yeni devizinin müəllifi isə Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Baxdır. BOK prezidenti bu təklifin qəbul olunmasını əlamətdar hadisə adlandırıb.

## BOK altı idman növünü rəsmən tanıdı

Altı idman növü Beynəlxalq Olimpiya Komitəsi (BOK) tərəfindən rəsmən tanınıb. Bu barədə qərar BOK-un Yaponiyanın paytaxtı Tokioda keçirilən 138-ci sessiyasında qəbul olunub.

Beynəlxalq Sambo Federasiyası, Beynəlxalq Çirlidinq Şurası, Beynəlxalq Muay-tay Assosiasiyası Federasiyası, Beynəlxalq Aysştok İdmanı Federasiyası, Dünya Lakross Federasiyası və Dünya Kikboksinq Təşkilatı Assosiasiyası BOK tərəfindən rəsmən tanınıb.

Tanınmış idman qurumlarının bəzilərinin idmançıları 2028-ci ildə Los-Ancelesdə keçiriləcək Yay Olimpiya Oyunlarında iştirak edə bilər.

Altı idman növündən yalnız biri - aysştok qış idman növüdür.




## Görüş təxirə salındı

Tokio-2020 Yay Olimpiya Oyunlarında Soren Opta (Surinam) və Metyu Abela (Malta) arasındakı badminton görüşü baş tutmayıb. Səbəb surinamlı idmançının koronavirusa yoluxması olub. Nəticədə qarşılaşma ləğv olunub. Qeyd edək ki, Soren Optada infeksiya iyulun ortasında aşkarlanıb.

## Açılış mərasiminin translyasiyası ən yüksək reytinq topladı

Tokio Yay Olimpiya Oyunlarının açılış mərasiminin translyasiyası Yaponiyada 1964-cü il Olimpiadasından sonra ən yüksək reytinq toplayan tədbir olub. Açılış mərasiminin translyasiyasının tamaşaçılar arasında reytinqi 56,4 faizə bərabər olub. Qeyd edək ki, Tokio Olimpiadasının açılış mərasimi Yaponiya İctimai Televiziyası (NHK) ilə birbaşa yayımlanıb. Yaponiyanın "Video Research" araşdırmalar şirkətinin məlumatına görə, Olimpiya Oyunlarının açılış mərasimi 1964-cü ildə Tokioda keçirilən ilk Yaponiya Olimpiadasından sonra ən çox baxılan tədbir olub. Həmin vaxtda NHK telekanalı tərəfindən aparılan translyasiya 61,2 faiz reytinq toplayıb.

## Tokio-2020-nin ən gəlirli idmançıları

Tokio Olimpiadasında çıxış edən ən gəlirli idmançıların siyahısı açıqlanıb. Siyahıya basketbol üzrə ABŞ millisinin forvardı Kevin Dürant başçılıq edir. "Forbs" nəşrinin hesablamasına görə, "Bruklin"in 32 yaşlı basketbolçusu ötən il 75 milyon dollar gəlir əldə edib. İkinci pillədə yaponiyalı tennisçi Naomi Osaka qərarlaşıb. O, ötən il 60 milyon dollar qazanıb. Üçüncü pillədə də MBA üzvü qərarlaşıb. Söhbət isə 40,3 milyon dollar qazanan "Portlend"in basketbolçusu Demian Lillarddan gedir.

İlk onluq əsasən basketbolçu və tennisçilərdən ibarətdir. Bu mənada yalnız şimali irlandiyalı qolfçu Rori Makilroy istisna təşkil edir. O, ötən il 32 milyon dollar qazanıb.

## Yanlış start faciəyə səbəb ola bilərdi

Tokio-2020 Yay Olimpiya Oyunlarında kişilər arasında triatlon yarışlarında xoşagəlməz hadisə baş verib. Buna idmançıların yanlış startı səbəb olub. Triatlonçular səhvən irəli üzdükdən sonra katerlər faciəyə səbəb ola biləcək təhlükəli manevrlər ediblər. Xoşbəxtlikdən, idmançılardan heç biri xəsarət almayıb. Bir neçə saniyədən sonra isə hakimlərdən ibarət heyət idmançıları starta qaytarmaq üçün onlara çatıb.

**olimpnews.az - sizin saytınız**




Olimpiya dünyası

Baş redaktorun müavini:
A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19